# GÖY QURŞAĞI

• UŞAQ JURNALI •

6 (54) noyabr-dekabr 2015

XÜSUSİ BURAXILIŞ

FİRİDUN BƏY KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI

50

# Yeni makan, işıqlı zallar, sevimli kitablar...

Kiçik oxu zalı





Nağıl otağı

Oxu zalı





Kiçik oxu zalı



Nağıl otağı

*Bu günlərdə uşaqlarımızın sevimli mütaliə məkanı olan Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının fəaliyyətə başlamasının 50 ili tamam olur. Artıq yarım əsrdir ki, bu ünvan kitabsevərlərin sevimli görüş yerinə çevrilib.*

*Bu illər ərzində uşaq mütaliəsinin təşkili və inkişaf etdirilməsində böyük uğurlara imza atıb. Kitabxananın dünya və Azərbaycan uşaq ədəbiyyatı incilərindən ibarət zəngin kitab fondu, olduqca rahat və işıqlı zalları, qayğıkeş əməkdaşları var. Düşünürəm ki, elə bu göstəricilərinə görə uşaqlarımızın sevimli mütaliə ünvanına çevrilə bilib. Məncə, uşaq kitabxanası üçün ən böyük uğur budur.*

*Mütaliə edən uşaq kitabla, onun müəllifi və qəhrəmanları ilə baş-başa qalır. Bu kitabın qəhrəmanlarına bənzəmək istəyir, düşünmək, nəticə çıxartmaq və öyrənmək imkanı qazanır.*

*İnanıram ki, gələcək illərdə də bu kitabxana uşaqlarımızın mütaliəsinin inkişafına yönələcək çox maraqlı layihələrə imza atacaq. Öz işini bu günün tələbləri səviyyəsində qurmağı bacaracaq.*

*Sevimli kitabxanamızın oxucularına saysız-hesabsız maraqlı kitablar, kitabxananın əməkdaşlarına isə kitabla və uşaqla işləmək kimi olduqca maraqlı və şərəfli işlərində uğurlar diləyirəm. Zövqlü oxucu nəsli yetişdirmək işini sizə etibar etmişik, əziz kitabxanaçılar. Bu işin öhdəsindən müvəffəqiyyətlə gələcəyinizə inanırıq!*

***50 yaşın mübarək,***
***gənc nəslin sevimli kitabxanası!***

***Əbülfəs Qarayev***
***Azərbaycan Respublikasının***
***Mədəniyyət və Turizm Naziri***



***Firidun Bəy Köçərli – Azərbaycanın tanınmış ədəbiyyatşünası, pedaqoq və publisisti... Dilimizin, tariximizin, təhsilimizin, ədəbiyyatımızın, folklorumuzun və nəhayət balalarımızın həyatında danılmaz əməyi olan böyük sima...***

## *Qısa arayış:*

***Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatşünaslığı və pedoqoji fikir tarixində tərəqqipərvər elm və ədəbiyyat xadimləri sırasında xüsusi yer tutan şəxsiyyətlərdəndir. 1863-cü il yanvarın 26-da Şuşa şəhərində anadan olmuşdur.***

***Mirzə Kərim Münşizadənin ibtidai məktəbini bitirdikdən sonra atasının arzusu ilə rus məktəbində təhsil alıb, Qori Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir (1880-1885).***

***Seminariyanı 22 yaşında bitirən Köçərli İrəvan Gimnaziyasına müəllim göndərilmiş, sonradan Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində müvəqqəti təlimatçı kimi çalışmışdır (1910-1918). Onun təşəbbüsü ilə seminariyanın Azərbaycan şöbəsi Azərbaycana – Qazax şəhərinə köçürülmüş və Firidun bəy Qazax müəllimlər seminariyasının müdiri vəzifəsində işləmişdir (1918-1920).***

***Firidun bəy Köçərli Sovet hakimiyyətinin ilk aylarında repressiyaya məruz qalmış, 1920-ci il iyunun 2-də Gəncədə həbs olunmuş, həmin ayın 21-də güllələnmişdir.***

### *Dilimiz və F. Köçərli*

Firidun bəy Köçərli “Azərbaycan ədəbiyyatı” əsərində K.D.Uşinskinin sözlərini misal gətirmişdi: “Madam ki, bir millətin özünə məxsus ana dilisi xarici dillərin təqəllüb və təsəllütündən salamat qalıbdır, o millət özü də salamatdır”. Azərbaycan dilini başqa dillərin zərərli təsirindən qorumaq üçün F. Köçərli, Y.V.Çəmənzəminli, Ü.Hacıbəyli, Ö.F.Nemanzadə və başqa ziyalılar böyük işlər görürdülər. Onlar dili millətin əvəzsiz sərvəti hesab edirdilər.

F. Köçərli mətbuatın xalq dilinə yaxın, aydın, sadə, anlaşıqlı bir dildə olmasını istəyirdi. O, ziyalılara və tələbələrinə Azərbaycan dilini yaxşı bilmək, bu dilin canlı üslübunda yazıb-yaratmaq üçün Vaqif, Vidadi, Bakıxanov, Zakir, Axundzadə, Seyid Əzim, Zərdabi kimi yazıçıları oxumağı məsləhət görürdü. O, qeyd edirdi:”Vaqifin adını eşitməyən və şənində söylənən “Hər oxuyan Molla Pənah Vaqif olmaz” məsəlini bilməyən yoxdur. Vaqifi belə şöhrətləndirən, əlbəttə, onun rəvan təbii kəlamı və gözəl qafiyələri olubdur”.

### *Ədəbiyyatımız və F. Köçərli*

Dövrünün ədəbi hadisələrini diqqətlə izləyən Firidun bəy Köçərli ədəbiyyatda xəlqiliyin və demokratik meyllərin inkişaf etdirilməsi üçün ciddi səy göstərmiş, realizmin yorulmaz təbliğatçısı olmuşdur. Onun C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.Nərimanov kimi sənətkarların əsərləri və “Molla Nəsrəddin” jurnalı haqqında söyədiyi fikirlər çox maraqlıdır. F.Köçərli Azərbaycan ədəbiyyatşünaslığı tarixində ilk dəfə XX əsrə qədərki ədib və şairləri əhatə edən ədəbiyyat tarixini yazmışdır. “Materiallar” da 129 şairin ədəbi irsi və tərcümeyi-halı verilmişdir. F.Köçərlinin Füzuli, Vaqif, M. F.Axundov, Zakir, S.Ə.Şirvani yaradıcılığına həsr edilmiş

tədqiqatı onun Azərbaycan ədəbiyyatına sevgisinin sübutudur. Vaqif, Vidadi, Nəbati, Zakir haqqında ilk geniş məlumat, M.F.Axundzadə haqqında ilk kitab Firidun bəy Köçərli qələminin məhsuludur.

### *Folklorumuz və F. Köçərli*

F.Köçərli bir ədəbiyyatşünas kimi araşdırmalarına folklor nümunələrini yazıya almaqla başlamışdır. O, el sənətini dərin vətəndaşlıq hissi ilə sevmiş, şifahi ədəbiyyatı itib-batmaqdan, unudulmaqdan qorumuşdur. Bunun üçün toplayıcılıq işinə başlamış, Aşıq Valehin şeirlərinin, o cümlədən onun məşhur "Vücudnamə"sinin, xalq bayatılarının, uşaq folkloru incilərinin bir qisminin öz dövrünün mətbuatında çap etdirmişdir. "Azərbaycan ədəbiyyatı"nın müəllifi öz xalqının bəşər mədəniyyəti xəzinəsinə verdiyi inciləri də sərraf kimi tapıb qiymətləndirməyi bacarmış, Azərbaycan ədəbiyyatını böyük ideallarla təhlil və sübut etmişdir.

Şifahi xalq ədəbiyyatının növ və janr zənginliyini aşkarlayan F.Köçərli qeyd etmişdir ki, keçmişdə şan və qüvvət sahibi olan türk milləti öz məişətinə, ayin və adətinə dair yaratdığı nağıl və hekayələr, gözəl mənzumələr, hikmətamiz məsəllər, atalar sözləri, nazik mənalı müəmma və tapmacalar, körpələrin qəlbini açan düzgülər və yanıltmaclar, heyvanat qisminə məxsus sayaçı sözləri unudulmaqdadır. Böyük maarifpərvər bu unudulmaq təhlükəsini duyaraq folklorumuzu toplamağa başlamışdır: "O millət ki, öz tarixini, dolanacağını, vətənini və dilini sevir – bu qism əsərləri kəmali şövq və diqqətlə cəm edib sərmayə kimi saxlayır və uşaqların ilk təlim-tərbiyəsini onları öyrətməklə başlayır".

### *Və nəhayət, balalarımız və F. Köçərli*

Firidun bəy Köçərli 1908-ci ildə "Balalara hədiyyə" kitabçasını çap etdirir. Bu kitab minlərlə oxucular tərəfindən rəğbətlə qarşılanır. "Balalara hədiyyə" haqqında Əli Sultanov yazırdı:"Bu kitabdan vətən qoxusu, dağların ətri, köçərilərin tüstüsü gəlir".

Firidun bəy Köçərli "Balalara hədiyyə" məcmuəsini hazırlamaqda məramını belə ifadə etmişdi: "Bu məcmuəni hər kəs oxusa – böyük, ya kiçik – onun qəlbi açılıb xəndan olacaqdır. Balalar şad olacaq bu səbəbə ki, onda dərc olunan əsərlərin cüməlsi onların dünyasındandır".

F. Köçərlinin fikrincə uşaq dünyası çox zəngindir. Uşaqlarda poetik duyum çox güclüdür. Onların təfəkkürü yazıçı təfəkkürünə uyğundur. Uşaq ədəbiyyatı böyüməkdə olan nəslin tərbiyəsində böyük əhəmiyyətə malikdir. Yüksək səviyyəli uşaq əsərlərinin yazılmasına həmişə böyük ehtiyac olub. Uşaqlar üçün yazılan əsərlərdə müasir dövrün nəbzi tutulmalı, coşqun və qaynar həyatımız öz bədii inikasını tapmalıdır. Bu, uşaq yazıçılarını düşündürən aktual problem olmalıdır.

# BALALARA HƏDİYYƏ




## DAĞLAR

Mən aşiq yastı dağlar,
Qar gəldi, basdı dağlar.
Üç ay toylu-bayramlı,
Doqquz ay yaslı dağlar.

Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar.
Səndə dostum gəzibdir,
Səni yüz yaşa, dağlar.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq bulaq, göy yaylaq
Yenə marala qaldı.

Başı çalmalı dağlar,
Dibi kölgəli dağlar.
Oturub yol gözlərəm,
Haçan el gəli, dağlar?!

### Məsəllər:

Dağ dağ ilə qovuşmaz,
adam adam ilə qovuşar.
Güvəndiyim alçacıq dağlar,
sizə də qar yağarmış?

### Tapmacalar:

Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi,
Əyilər su içməyə,
Bağırır ulaq kimi.

Alçacıq dağdan qar yağar.

# QURD

Qurda dedilər:
– Gəl səni qoyuna yollayaq!
– Başladı ağlamağa.
Dedilər:
– Daha niyə ağlayırsan?
Dedi:
– Qorxuram, yalan ola.
Qurddan soruşdular:
– Aranda qalacaqsan, yoxsa yaylağa gedəcəksən?
Qurd cavabında dedi:
– Mənimki el ilədir. El haraya getsə, mən də oraya gedəcəyəm.

## Məsəllər:

Çaqqal var ki, gödən çıxardır,
qurdun adı bədnamdır.
Qurddan qorxan qoyun saxlamaz.
Qurd nə bilir ki, qatır bahadır.
Qurd dumanlı gün axtarır.

## Tapmaca:

Səkkizi san darayı,
Doqquzu don darayı,
İkisi xas qırmızı
Dördü mazan darayı.

# DÜZGÜ

Beşdi-beşdi ha beşdi,
Ağacdan alma düşdü.
Almanın yanı zədə,
Zədəni yeməz gədə.
Çoban çöldə gəzirdi,
Divarların düzürdü.
Çoban qoyuna gedər,
Köpəyi adam didər.
Qabağında beş keçi,
Hanı bunun erkəci,
Erkəc qazanda qaynar,
Qənbər bucaqda oynar.
Bu iş gecə nə işdi,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı sata.
Darını səpdim yerə,
Yerdə bitib göyərə.
Yerdən darı göyərdi,
Biçinçi gəldi dərdi.
Biçinçi Həzrətqulu,
Cibində vardır pulu.
Həzrətqulu bənnadı,
Arvadını danladı.
Arvadı Cahan banı –
Bunun çarşabı hanı?
Çarşabı cırılıbdı.
Qolbağı qırılıbdı.
Cahan gedib hamama
Çarşabını yamama.
Hamamın suyu isti
İsti suda nə pisdi!
Telpəri onun qızı,
Paltarı qıpqırmızı,
Oğlunun adı Xıdır,
Əlindəki dəhrədir.
Xıdır bəyin dəhrəsi,
Telpərinin çöhrəsi
Cəhrə demə, əsasdı,
Dəhrə demə almasdı,
Telpəri yunu darar,
Xıdır bəy odun yarar.

# Kitabxananın ömür kitabından səhifələr







1 Uşaqları mütaliəyə səsləyən kitabxananın ilk ünvanı

2 Xalq yazıçısı Mir Cəlal Paşayevin 65 illik yubileyi – 1973







3 Xalq yazıçısı Süleyman Rəhimovla "Gülən balıq" əsərinin müzakirəsi – 1977

4 Uşaq şairi Zahid Xəlil, Allahverdi Məmmədli və İsa İsmailzadə ilə görüş - 1 iyun 1981





6

Xalq artisti
Nəsibə Zeynalova
ilə görüş- 1989

5

Xalq şairi
Hüseyn Ariflə
görüş-1984

8

Xalq yazıçısı
Vidadi Babanlı
ilə görüş-1988





7

“Savalan baba
və Cırtdan”
uşaqları
salamlayır
– Uşaq Kitabı
Bayramı -1985

10

Xalq yazıçısı
Anarla görüş -1986



9 Aşıq Mikayil Azaflı
ilə uşaqların görüşü- 1984



# KITABXANANIN ÖMÜR KITABINDAN SƏHIFƏLƏR



F. Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə yaradılmışdır. M.Qorki adına kitabxana fondunun bazası əsasında yaradılsa da, hazırda fondunda 270000 nüsxə ədəbiyyat olan kitabxananın ən böyük nailiyyətlərindən biri uşaqların istifadəsi üçün "İnternet zalı", "Biləyən" mult-media otağının, "Kompüter bilikləri və





İnternetin əsasları", "Kitabların təmiri və bərpası" üzrə tədris mərkəzinin təşkil olunması, elektron nəşrlərin və elektron kitabxananın yaradılması olmuşdur. Moskva Dövlət Uşaq Kitabxanasının "Klub detskix kniq" klubuna üzvü olmaq, kitabxanaya göndərilən kataloqlar əsasında kitab sifarişetmə və yeni ədəbiyyat əldə-





etmə imkanını genişləndirmişdir. 1990-cı ildə kitabxananın nəzdində yaradılmış "Körpəm" Eksperimental Uşaq Teatr Studiyası dəfələrlə cəbhə bölgələrində, uşaq evlərində tamaşalar göstərmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası ilk dəfə olaraq Xaçmaz



rayonunda "Ekologiya ili"nə həsr olunmuş "Ekoloji kitab bayramı" keçirmişdir. Tədbirin keçirilməsində məqsəd təkcə ekologiyaya deyil, müxtəlif mövzulara dair ədəbiyyatın ictimaiyyətin diqqətinə çatdırılması, kitab bayramı ilə mütaliəyə maraq yaratmaq idi. Müstəqilliyimizin 20 illiyi ərəfəsində kitab nəşri və təbliğinə həsr edilən mühüm tədbirlərdən biri F. Köçərli adına Respublika Uşaq Kitabxa-





nasının 2011-2013-cü illərdə gerçəkləşdirdiyi "Kitab karvanı: uşaq kitabları İpək yolu ilə" adlı uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisidir. İpək yolu ilə səfərə çıxan kitab karvanı hər bir rayonun uşaq kitabxanasına 900-dən çox uşaq kitabı hədiyyə etmişdir. F.Köçərli adına Respublika Uşaq Kitabxanası artıq neçə illərdir ki, "Uşaq kitab bayramı" keçirir. Kitab bayramlarında uşaqların çox sevdikləri nağıl kitablarının paradı bütün kitabsevərlərin diqqətini cəlb edir. Kitabxana Rusiyada



yaşayan azərbaycanlı uşaqlara elimizin gözəl bayramı olan Novruzla bağlı məlumat vermək, milli, mənəvi dəyərlərimizin dünyanın hər bir yerində qorunub saxlanmasına nail olmaq məqsədilə "Rusiya - Azərbaycan: İki mədəniyyətin dialoqu" adlı telekörpü keçirmişdir.

Ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş “Dost ölkələrə səyahət: Əzizləyər hər el səni öz adətilə” adlı yarışmada 8 uşaq evi və internat səsimizə səs verərək, təmsil etdikləri ölkə barədə təqdimat slaydlarını, milli rəqs, milli geyim nümunələrini, kitabları, milli gəlincikləri nümayiş etdirmişdir. Belə silsilə tədbirlərin davamı olaraq Respublika Təhsil Nazirliyi və Bakı şəhəri Təhsil İdarəsinin tabeliyində olan Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzləri arasında “Biomüxtəliflik günü”nə həsr olunmuş “Dünyanın mədəniyyət rəngləri” adlı yarışma, “Türk Uşaq Ədəbiyyatı Həftəsi”, “Rus Uşaq Ədəbiyyatı Həftəsi” adlı böyük tədbirlərə imza atmışdır.









iBbY International Board on Books for Young People










*Azərbaycan 2013-cü ildə ilk dəfə Beynəlxalq Uşaq Kitabları Şurasının üzvü olub. Şuranın respublikamızdakı milli bölməsinin təmsilçisi Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasıdır.*

*Andersen mükafatı 1956-cı ildə UNESCO-nun Beynəlxalq Uşaq və Gənclər Ədəbiyyatı Şurası (International Board on Books for Young People — IBBY) tərəfindən təsis edilib. Mükafatı təsis etmək ideyası dünya uşaq ədəbiyyatı sahəsində xidmətləri olan mədəniyyət xadimi Elle Lepmana (1891-1970) məxsusdur. E.Lepmanın bu sözləri çox məşhurdur: "Bizim uşaqlara kitab verin və siz bununla onlara qanad vermiş olacaqsınız". Mükafat iki ildən bir, aprelin 2-də - Hans Kristian Andersenin anadan olduğu gün təqdim edilir. 1967-ci ildə Beynəlxalq Şuranın təşəbbüsü və qərarı ilə H.K.Andersenə böyük hörmət və sevginin əlaməti olaraq 2 aprel Beynəlxalq Uşaq Kitabı Günü elan edilib. Hər il IBBY-nin milli bölmələrindən biri bu bayramın təşkilatçısı olur. "Uşaq yazıçıları və rəssamları üçün bu mükafat – çox nüfuzlu beynəlxalq ödüldür. Onu çox vaxt "Kiçik Nobel Mükafatı" da adlandırırlar. Mükafat yalnız həyatda olan, yaşayıb-yaradan yazıçı və rəssamlara verilir. 1956-cı ildən mükafat ən yaxşı uşaq kitabının müəllifinə verilir. 1966-cı ildən onu həmçinin ən yaxşı rəssam-illüstratora da verməyə başladılar. Mükafata iddialı olanların namizədliyi IBBY-nin Beynəlxalq Uşaq Kitabları Şurasının milli bölmələri tərəfindən irəli sürülür. Laureatlar – yazıçı və rəssam – IBBY-nin konqresində üzərində Hans Kristian Andersenin profildən surəti əks olunmuş qızıl medalla təltif olunurlar. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası üzvü olduğu Beynəlxalq Uşaq Kitabları Şurasının 2014-cü il üçün Hans Kristian Andersen mükafatına respublikamızdan ilk dəfə uşaq yazıçısı Sevinc Nuruqızının namizədliyini irəli sürüb.*

# Qızıl fond

*Sərvəti qızıldan çox-çox qiymətli bir cəvahirat-kitabdır bu fondun. Hər bir kitabı bir abidədir. Nə mərmərdən, nə qranitdən, nə daşdan, nə də qayadan yonulmayıb bu abidələr. Ən mükəmməl, ən sərt və ən yumşaq, ən xeyirxah, ən qəddar, sevgi və nifrət, haqq və ədalət dolu SÖZdən yonulub. Sözə nəvazişlə çapılıb, hamarlanıb və böyük ehtiramla postament üzərinə qaldırılıb.*













































*Postamenti oxucu sevgisi olub onların. Yaşadıqları məkan isə Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının sevimli saxlanc yeri-"Qızıl fond"u...*



***Bəzən dünənlə bu günün arasında bir ömür keçir. Amma biz fərqinə varmırıq. Həyat deyib yaşayırıq dünənləri və bu günləri. Heç kimə və heç nəyə hesabat vermədən. 50 il ömür sürmüş kitabxana isə dünənini və bu gününü tarixin səhifələrinə yazır. Kiminlə yola çıxdı, kiminlə yol gedir... Gəlin, maqnitofon lenti kimi bu tarixi irəli, geri çevirək, görək səhifələrində nə tapırıq.***

***Müsahiblərim Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının dünən və bu gün rəhbərliyində olan iki xanımdır: Fizurə Quliyeva və Şəhla Qəmbərova...***

# Fizurə Quliyeva

***– Fizurə xanım, necə qurdunuz kitabxananı?***

– Öncə uşaqları düşündüm. Onlara kitabı və kitabxananı sevdirmək... Bakı şəhərində, müxtəlif rayonlarda kitab bayramları, milli kitab sərgiləri keçirdim. "Kitab karvanı" ilə səyahətə çıxıb, hər il 5 rayonda böyük kitab bayramları keçirdik və hər rayona 1000 ədəd uşaq kitabı bağışladıq. Bütün bunlarla yanaşı yeni kitabxana binası üçün axtarışlarda idim. İllərlə arzusunda olduğum yeni kitabxana, uşaqların estetik zövqünü oxşayan yeni mebellər, gözəl oxu zalları, nağıl otaqları... Bütün ölkələrin kitabxanalarına internet səhifələrində baxır, fikirlərimin reallaşması üçün çalışırdım. Nazirimiz Əbülfəs Qarayevin böyük köməyi ilə yeni və çox gözəl kitabxana arzum reallaşdı. Mənim 52 illik əməyim uşaqlara belə bir kitabxananı hədiyyə etdi. Mən bu kitabxana ilə qürur duyuram. Hər dəfə kitabxananı bu səviyyədə görəndə sevinirəm ki, mən bunu edə bildim.

***– Arxaya baxanda təəssüflənməli nə isə varmı? Nəyi etmədiniz?***

– Belə bir fikir var, ən xoşbəxt insan digərlərini xoşbəxt edə bilən insandır. Çalışmışam həmişə ətrafımdakıları xoşbəxt edə biləcək işlər görüm. Daha doğrusu, bu mənim həyat amalım olub. Amma bununla belə, arxaya baxanda təəssüflənməli şeylər çoxdur. Ən ümdəsi "Milli Kitabxana" statusu ala bilmədim. Bu mənim ən böyük arzum idi. Yaxşı ki, Beynəlxalq Uşaq Kitabı Şurasına üzv ola bildik. Çox təəssüflənirəm ki, elə rayonlar oldu ki, işlədiyim müddətdə oraya gedib kömək edə bilmədim. Ən böyük arzum Dağlıq Qarabağ zonasındakı kitabxanalara gedərək onlara kömək etmək idi...

***– Sağlamlıq, gənclik, rahatlıq getdi... Qalan kitabxana oldu. Yenidən başlasaydınız, onları qurban verərdiniz?***

– Əgər bütün bunların müqabilində qalan belə gözəl kitabxanadırsa, təəssüflənməyə dəyməz. Yenidən başlasaydım, şəhərin ən mərkəzi küçələrinin birində yeni, daha böyük beşmərtəbəli kitabxana binası tikdirərdim, vestibülündə fəvvarələr, pəncərələrinin önündə güllər, çiçəklər... Uşaqların istirahət guşəsi, idman zalları, əl işləri otaqları və s. Məşq və qrim otaqları üçün yer olardı və mən ömrümün qalan hissəsini də ancaq və ancaq kitabxanaya həsr edərdim.

***– Kitabxana birinci eviniz idi. Darıxmırsız ki?***

– Kitabxana, doğrudan da, mənim birinci evim olub. Ömrümün 52 ili kitabxanada keçib. Yadıma düşəndə ki, uşaqlarla necə tədbirlər keçirmişəm, əlbəttə darıxıram.
Fikirləşirəm ki, mənim ən böyük uğurum kitabxananın yeni binaya köçürülməsidir.

***– Nəyi heç vaxt unutmazsınız?***

– Kitabxananı və kollektivimi heç vaxt unutmaram. Çünki kitabxana mənim evim, kollektiv isə ailəm olub. Onları unutmaq çətindir. Nə yaxşı ki, kitabxana yaxındadır, yoxsa mənə çox çətin olardı, darıxardım.

*Tez-tez belə bir ifadə ilə rastlaşırıq: "Arzuların qanadında uçmaq". Arzuların qanadında yerdən göyə qalxmayınca, onun doğruluğuna inanmaq olmur. Qalxdınsa, bütün dünya sənindir. Dağları çevirə biləcək bir qüvvə hakim olur sənə: "Bütün gücünü sevdiyin işə ver, müqəddəs amallara xidmət et, bacardıqca gözəl dünya uğrunda mübarizə apar və bu dünyanı öz evində, işində, şəhərində yarat". Mənim müsahibim bu dünyanı gözəlləşdirməyi bacaranlar oldu. Öz evində, öz işində, öz şəhərində...*



# Şəhla Qəmbərova

***– Şəhla xanım, necə qurmaq istəyirsiniz kitabxananı?***

– Öz işimi öz adıma və bu işdən bəhrələnəcək insanların – uşaqların adına layiq qurmaq istəyirəm. Dünyanın ən gözəl varlıqlarının, gələcəyimizin qurucularının. Yemək, yatmaq kimi insan həyatının ən zəruri ehtiyacı hesab etdiyim mütaliəni uşaqlar üçün sevilən, arzuolunan etmək istəyi var qəlbimdə. Nağıllardakı kimi, səhifələrini mələklər çevirən sehrli kitablar, gözəl xəyallar və əsrarəngiz nağıllar məkanına çevirmək istəyirəm kitabxanamızı. Bütün fəaliyyətimi də məhz bu istəyin üzərində qurmuşam. Uşaqlara layiqincə xidmət göstərmək, dünyanın ən gözəl kitabxanasını onların görüş yeri etmək, bu məkanda ömür boyu xatırlanacaq anlar yaşatmaq. Mənə elə gəlir ki, bu istək məndə heç vaxt ölməyəcək.

Bu günə qədər bacardığımı etmişəm. Öhdəmə düşən vəzifəni necə yerinə yetirdiyim haqda heç nə deyə bilmərəm. Bunu ancaq kənardan müşahidə etmək olar. Bundan sonra görəcəyim işlər barədə arzularım isə qürurlu, əzəmətli, hündür mərtəbəli binalar kimi daim artır.

***– İrəli baxanda qorxmursuz ki? Nələri etməlisiz?***

– Xeyr, heç vaxt önə baxmaqdan qorxmamışam. Gözəl kollektiv, rahat məkan və yerinə yetiriləcək çoxsaylı layihələr. Bunlarla yalnız qürur duymaq olar. Çətinlikdən çəkinənlər mənzil başına çata bilməzlər. İdarəedici insan böyük ideallara xidmət etməlidir. Belə olmazsa, gördüyün işin nəticəsi olmaz. Yaxşı fikirdir, deyir həyatının hər anında sevinc axtar – bu, xoşbəxtliyi tapmagın ən gözəl üsuludur. Çox şeylər etməliyəm. İşimlə bağlı planlarım, layihələrim çoxdur. Onların hər birində sevinəcəyim və kimisə sevindirəcəyim məqamlar mütləq olacaq. Əgər Allah qismət, ömür isə vəfa etsə.

***– Belə işlər sağlamlıq, cavanlıq, rahatlıq bahasına başa gəlir. Qalan isə görülən iş olur. Başladığınıza peşman deyilsiz ki?***

– Əsla yox. Əksinə, çox məmnunam. İnanın, səmimiyyətimə.

***– "Kitabxana mənim evimdir", - demək çətin deyil ki? Yorulduğunuzda nə düşünürsünüz?***

– Doğrudan da, kitabxana mənim evimdir. Kollektivimiz isə bir ailədir. Mən burada ünsiyyətdə oluram, burada yaxşı və pis olanı yerbəyer etməyə çalışıram, buranın abad olması üçün çalışıram... Ev deyil, bəs nədir?! Mənim 24 saatlıq həyatımın 10-12 saatı burada keçir. Sizə bir söz deyim, mən istirahət etməyi sevmirəm. Əgər istirahət edirəmsə və yaxud yorğunamsa, yenə beynimdə işim, planlarım, layihələrim cərəyan edir. Xoşbəxt o insandır ki, səhər işə, axşam evə tələsir. Mən də o xoşbəxtlərdən biriyəm.

***– Nəyi heç vaxt unutmazsınız,?***

– Bu, çox maraqlı sualdır. Demək, 28 illik əmək fəaliyyətimdə iki dəfə məndən qabaq işləyən direktorlarla görüşmüşəm. Onların xeyir-duasını almaq üçün... Bu görüşləri heç vaxt unutmaram...



# Kərim Tahirov

***Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət İşçisi, professor.***

Hər bir xalqın intellektual səviyyəsini əks etdirən onun kitabxanalarıdır. Müxtəlif səpkili kitabxanalar arasında uşaq kitabxanaları xüsusi yer tutur. Onların məqsədi daha ali və müqəddəsdir, gələcəyimiz olan uşaqlara xidmət edirlər.

Böyük rus maarifçisi və pedaqoqu A.S. Makarenko yazırdı ki, mən uşaq ağlamağını sevmirəm, ancaq kitabxanadan evə getmək istəməyən uşağın ağlamaq səsi mənə ən çox sevdiyim musiqidən də xoş gəlir.

Bu gün yarım əsrlik yubileyini qeyd etdiyimiz F.Köçərli adına Respublika Uşaq Kitabxanası da ölkəmizin ən iri uşaq kitabxanası olmaqla, uşaq kitabxanaları arasında aparıcı rol oynayır. Bu kitabxananın böyüməkdə olan nəslin mənəvi tərbiyəsində və yaradıcı təfəkkürünün formalaşmasında əvəzsiz xidmətləri vardır.

Çox çətin və şərəfli inkişaf yolu keçən F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində inkişafının ən yüksək pilləsinə qədəm qoymuşdur. Uşaq kitabxanası dövlət qayğısını daima öz üzərində hiss etmişdir. 5 il əvvəl kitabxananın yeni geniş, işıqlı binaya köçməsi, müasir tələblərə cavab verən bir bilik mərkəzinə çevrilməsi kiçikyaşlı oxucular üçün əvəzsiz hədiyyə olmuşdur.

Belə ki, kitabxana muasir tipli informasiya texnologiyalarından istifadə edərək işlərini yüksək səviyyədə yenidən qurmuş saytını, elektron kataloq və elektron kitabxanasını yaratmışdır. Bu yeniliklər respublika əhəmiyyətli kitabxananın ölkəmizin ən ucqar rayon və kənd kitabxanaları ilə əlaqə yaratmasına, onlara hər cür kömək göstərə bilməsinə və dünya kitabxanaları ilə əməkdaşlığına şərait yaratmışdır. Bu kitabxana Azərbaycanda fəaliyyət göstərən bütün uşaq kitabxanaları üzrə elmi metodik mərkəz hesab olunur, respublikada uşaqlara kitabxana xidmətinin vəziyyətini öyrənir və təhlil edir.

Bu 50 il ərzində F.Köçərli adına Respublika Uşaq Kitabxanasında yüksək səviyyəli peşəkarlardan ibarət bir kollektiv formalaşmışdır. Onların əziyyətli, ancaq şərəfli əməyi nəticəsində metodik və biblioqrafiya sahələri üzrə əhəmiyyətli işlər görülmüşdür. Kitabxananın keçirdiyi mədəni-kütləvi tədbirlər, kitab təqdimatları və kitabın təbliğinə xidmət edən uşaq yazıçı və şairlərilə görüşlər, oxucu konfransları sərgilər gənc nəslin maariflənməsində, vətənpərvərlik ruhunda tərbiyə edilməsində önəmli yer tutur.

Ölkənin ən yaxşı mədəniyyət ocaqlarından olan F.Köçərli adına Respublika Uşaq Kitabxanasında gənc nəslin təlim-tərbiyəsinə, dünyagörüşünün formalaşmasına, onların hərtərəfli inkişaf etmiş vətəndaşlar kimi yetişməsinə istiqamət verən sanballı layihələr həyata keçirilir.

Kitabxana son illərdə ciddi diyarşünaslıq fəaliyyəti ilə də məşğul olmağa başlamışdır və kitabxananın tarixində ilk dəfə olaraq nəşr edilən "Firidun bəy Köçərli" və "İlyas Tapdıq" adlı fundamental şəxsi biblioqrafiyalar, "Uşaqlara tolerantlıq haqqında", "Gənc anaların maarifləndirilməsi" və s. tövsiyə vəsaitləri ölkəmizin kitabxanaçılıq işinə böyük töhfədir.

Kitabxananın təsis etdiyi "Göy qurşağı" jurnalının əsas məqsədi uşaqlarda intellektual səviyyənin inkişafı, onlara vətəndaşlıq və vətənpərvərlik hislərinin aşılanması, gənc nəslin müasir dünyayla ayaqlaşması, insanlararası və mədəniyyətlərarası ünsiyyət prinsiplərinə yiyələnməsi, bir sözlə, kamil insan yetişdirilməsi işinə yardım etmək, mütaliəyə marağı artırmaq, uşaqların informasiyaya olan ehtiyacını ödəməkdən ibarətdir. Azərbaycanın bütün rayon və şəhər uşaq kitabxanalarına göndərilən bu jurnal uşaqların ən sevimli stolüstü nəşrinə çevrilmişdir.

Respublika Uşaq Kitabxanasının 50 illik yubileyi münasibətilə bütün kitabxana ictimaiyyətini, xüsusilə kitabxananın əməksevər və fədakar kollektivini ürəkdən təbrik edir, onlara cansağlığı, uzun ömür, işlərində yeni-yeni nailiyyətlər arzulayıram!

# Yeni məkan, işıqlı zallar, sevimli kitablar...

*Abonement şöbəsi*



*Kiçik oxu zalı*







*"... Mən kitab oxumağı sevən balaca qızcığazdım. Atam varlı adam idi. Çox varlı. Ad günlərimdən birində mən atama dedim:"Ata, bir arzum var. Ad günümdə mənə kitabxana bağışla. Bapbalaca bir kitabxana... Lütfən...*

*Həmişə arzulayırdım ki, içində yalnız kitablar olan evim olsun. Arzum yerinə yetdi. Atam mənə meşədə balaca bir ev tikdi. Saysız-hesabsız kitablar aldı... Və mənim kitabxanam oldu", - miss Frenni dedi.*

*Keyt Di Kamillo "Sağ ol, Uinn- Diksi"*



Yazıçı Sevinc Nuruqızı

*Məşhur uşaq yazıçısı Keyt Di Kamillodan bu hissəni təsadüfən sitat gətirmədim. Yəqin bu dünyada Miss Frenni kimi balaca kitabxana arzulayan minlərlə oğlan və qız var. Axı onların hamısının atası cox varlı adam deyil ki, onlara şəxsi kitabxana açsın. Və həmin o minlərlə oğlan və qızın arzularının ünvanlandığı bir məkan var. Çox uzaqda deyil. Azərbaycan adlı günəşli məmləkətin Xəzrili-Gilavarlı paytaxtı Bakı şəhərindədir. Gözəl bir göydələnin ikinci mərtəbəsində. Geniş otaqları, işıqlı zalları, gülərüz əməkdaşları var. Bu məkanı uşaqlara onları böyük məhəbbətlə sevən dövlətimiz hədiyyə edib. Miss Frenninin çox varlı atası kimi...*

*İçi kitablarla dopdolu bir məkanı bağışlayıb uşaqlara... Və minlərlə uşağa əvəzedilməz doğum günü hədiyyəsi olub. Söhbət F. Köçərli adına Respublika Uşaq Kitabxanasından gedir. İndi də onun ad günüdür. Bu günlərdə 50 illik yubileyini qeyd edəcəyik. Düz yarım əsrdir ki, bu kitabxananın divarları arasında ən müxtəlif ölkələrdən olan ən maraqlı yazıçıların ən qiymətli kitabları yaşayır. Ən qiymətli kitabların işığına ən ağıllı uşaqlar yığışır. Əminəm ki, bu kitabxana Yer üzünün ən xoşbəxt kitabxanasıdır. Bilirsiniz, niyə? Çünki onun kitabları arasında oxunmamış bir dənə də olsun kitab yoxdur. Deməli, burada yaşayan kitablar da Yer üzünün ən xoşbəxt taleli kitablarıdır.*

***Ən xoşbəxt kitabların ən xoşbəxt KİTABXANASI, ad günün mübarək!***

Uşaqlıq illərində üzvü olduğum F.Köçərli adına Respublika Uşaq Kitabxanasına uzun illərdən sonra ilk getdiyim gün heç yadımdan çıxmır.

Uşaq yazıçısını uşaq kitabxanasında çox səmimi qarşıladılar.

Bu gün F.Köçərli adına Kitabxana sıx əlaqələr saxladığım, tədbirlərində iştirak etdiyim, həmkarlarımla, oxucularımla görüşdüyüm məkandır. Burda hər şey sadə və gözəldir. Burda hər şey uşaqların özü qədər məsumdur. Oxu zalı, nağıl otağı, divardakı tablolar, rəfləri bəzəyən oyuncaqlar və kitablar, kitablar, kitablar... Millətin yaddaşı olan bu kitablara sevgini uşaqlara aşılayan kitabxana işçiləri... Onların üzündəki səmimiyyəti başqa heç yerdə görə bilməzsən.

Bu gün kitabxananın yarandığı gündən bizi 50 illik zaman məsafəsi ayırır. F.Köçərli adına Kitabxananın bütün kollektivini təbrik edirəm! Sizə rəngarəng kitablar və bu kitabları oxuyacaq saysız-hesabsız oxucu arzulayıram! Xeyirxah işinizdə uğurlarınız bol olsun!



***Reyhan Yusifqızı,***
***yazıçı***



***"Təbəssüm"***
***Ordeni kavaleri, yazıçı***
***Aygün BÜNYADZADƏ***

50 ildir ki, balalarımızın maariflənməsi yolunda yorulmadan çalışan bir ocaq var – F.Köçərli adına Respublika Uşaq kitabxanası. 50 ildir ki, balalarımız həmin ocağa gələrək, yeni kitablar, yeni müəlliflər və yeni qəhrəmanlarla tanış olur və onları sevirllər. Və bu işdə onlara kömək edən, yol göstərən mehriban xalaların – kitabxananın işçi heyətinin zəhməti çox böyükdür.

İllər keçir, əsrlər dəyişir, dəyişməyən isə bizim sevimli kitabxanadır! Bu gün də ənənə davam edir – bu gün də uşaqlar gəlir, mehriban və gülərüz kitabxanaçı xanımlar onları qarşılayır, məsləhətlərini əsirgəmir və maraqlı kitablar tövsiyyə edir. 50 yaşın mübarək, balaca mələkləri böyük, macəra dolu sehrli aləmə aparan kitabxanamız! 50 yaşınınız mübarək, kitabxanamızın xeyirxah mələkləri.

# Mən artıq başqayam, bəs sən?



Salam, "Göy qurşağı"! Mən Malikəm, bir neçə dəfə sənə məktub yazmışam, dərc eləmisən, dostlarım, sinif yoldaşlarım da oxuyublar, çox sağ ol! Bu yaxınlarda maraqlı hadisə oldu, yenə istədim, sənin köməyinlə dostlarımla paylaşam.

Atam mənə planşet aldı. Dedi ki, bəlkə, bir-iki ilə kitablar ləğv olundu, elə bütün dərslərinizi bundan oxudunuz, öyrəş. İnternetdə də kitablar var, onları oxuya bilərsən. Planşetə tez alışdım. Düzdür, arada oyun da oynayıram, amma dərslərimə də köməyi olur. Bir neçə gün sonra bibim bizə gəldi. O, jurnalistdir, dərslərimlə də ciddi maraqlanır. Planşetə başımın qarışdığını görüb soruşdu ki, nə edirəm. Mən də atam deyəni dedim. Sonra da dedim ki, müəllim bir neçə şeir tapşırıb, onları axtarıram internetdə. Üzünə baxanda gördüm ki, həmişə gülərüz bibim qaşqabağını sallayıb. "Tapa bildin?" - bibim soruşdu. Mən də, sözün düzü, tapmamışdım. "Yox, amma taparam da indi", - dedim. Bibim dedi, yox, belə olmaz, gödəkçəni geyin, gedirik.

Dinməzcə geyindim, düşdük yola. Çox sual verdim ki, haraya gedirik, amma bircə kəlmə dedi: "Yaxşı yerdir, gedəndə oradan çıxmaq istəməyəcəksən".

Səməd Vurğun küçəsində hündür, qırmızı binaya çatdıq. İkinci mərtəbəyə qalxdıq. Lövhədə "F.Köçərli adına Respublika Uşaq Kitabxanası" oxuyanda ürəyim sızıldadı. "Eee... gör məni haraya gətirib", - fikirləşdim.

İçəri girdik. Bibim məni çoxlu rəflərin olduğu zala ötürdü: "Nə lazımındır, buradakı qızlardan soruş". Gözümü döyə-döyə qalmışdım ki, bir xala yaxınlaşdı: "Balaca, nə axtarırsan?" Müəllimin tapşırığını birnəfəsə dedim. "Bir dəqiqə", - dedi, rəflərin arasında itdi. Oradan səsi gəldi, yoldaşına mənimlə maraqlanmağı tapşırdı. Başqa bir qəşəng qız gəlib əlimdən tutdu: "Nağıllarla aran necədir?" "Hərdən oxuyuram, anam danışır, qulaq asıram", - dedim. "Gəl gör, sənə nə göstərəcəyəm", - deyib məni bir otağa apardı. Otaqda daha nələr yox idi - oyuncaqlar, "danışan kitablar" (mənim də bir neçəsi varımdır), disklər... Bir

küncdə isə lap balaca parça oyuncaqlar vardı. Qəşəng qız dedi ki, bunlar "barmaq teatrı" üçündür. Sonra da bir-ikisini barmağına taxıb mənim üçün kiçik nağıl danışdı. Çox gülməli tamaşa idi. Diskləri göstərib soruşdu ki, cizgi filmləri izləmək istəyirəmmi? Doğrusu, istəyirdim, amma bu vaxt birinci gördüyüm xala gəldi ki: "Cavan oğlan, sifarişin hazırdır". Qəşəng qız da dedi ki, hər bazar günü kitabxanada "oxu saatı" olur, məni də dəvət elədi.

Yenidən zala qayıtdıq. Masanın üstündə xeyli kitab qalaqlamışdılar, hamısının da içində xırda kağızlar. Kağızların olduğu yerdən bir-bir açıb göstərdilər, dedilər, indi buyur, seç. Bibim də kömək elədi, ən lazımlılarını seçdik. Xala dedi ki, internetdə də bəzi məlumatlar var, onu da göstərə bilər. "Harada?" soruşmağımı gözləmədi, məni kitabxanadakı internet otağına apardı. Yolda gözüm divar boyu şkaflarda qaldı: onların içində elə qəribə, maraqlı əşyalar var idi ki... İnternet otağında kompüterlər vardı, birinin qarşısına əyləşdirdilər, sonra da birlikdə axtarış apardıq. İki şeir tapdıq.Köməkləşib bibimin elektron poçtuna yolladıq ki, evdə rahat köçürüb, əzbərləyim.

Kitabları götürüb yola düzəlmək istəyirdim ki, mənə güldülər: "Hara belə? Kitabxanaya yazılmamış kitablarımızı aparırsan?" İstiləndim lap, üzüm yandı. Adıma kitabça açdılar, bir-bir məlumatları da, götürdüyüm kitabları da qeyd elədilər, təbrik də elədilər hələ. Bir qəribə də söz dedilər, "abonent" idi, deyəsən. Yəni mən bu gündən abonentəm. Qəşəng sözdür, xoşum gəldi.

Sevincək qapıya yollanırdım ki, bibim dedi, bir az gözlə. Qızlardan nəsə soruşdu. Cavab aldı ki, "fondda Rəfiqə xanımdan soruşun". Bibim məni özüylə başqa otağa apardı. Orada da çoxlu kitablar vardı. Rəfiqə deyilən xala bibimin istədiyi kitabın adını eşidəndə üzü güldü, amma sonra: "Onun üçün çox balacadır axı", - dedi. Bibim: "Eybi yox, qoy alışsın, - dedi. - Həm də ruscadır, özüm oxuyub tərcümə edəcəm, izahını da verərəm".

İstədiyi kitabı başqa şöbədən tapıb verdilər bizə, onu da mənim kitabçama qeyd elədilər.

Çıxmağa hazırlaşırdıq ki, böyürdəki dəmir rəflərdə rəngli, qəribə formalı kitablar gördüm. Ən pisi o idi ki, heç birinin adını oxuya bilmədim. Oxudum e, anlamadım. Bibim dedi ki, bunlar hamısı əcnəbi dildədir: alman, ingilis, fransız, hind, fin, holland, türk... Maraqlandığımı görüb, kitabxanaçılar izah elədilər ki, bu kitabları onlara xaricdən yollayıblar, kim dili bilirsə, götürüb oxuyur. Bilməyənlərə də "oxu saatı"nda həmin kitabları ya tərcümə edib oxuyurlar, ya da elə hazır tərcüməsini. Doğrudan a, heç çıxmaq istəməzsən buradan. Hər şey necə rahatdır.

Kitabxanaçılar danışdıqları vaxt gözümə divarda rəngbərəng elan da sataşdı. Heç demə, dekabrın 15-də Gənc Tamaşaçılar Teatrında bu kitabxananın 50 yaşını qeyd edəcəklər. Bibimə göstərdim, bax! Kitabxanaçılar da baxdılar. Dedilər ki, çox maraqlı olacaq, istəsəm, gələ bilərəm. Sonra dedilər, nə yaman hər şeylə maraqlanıram...

Sağollaşıb çıxdıq. Məni ən çox bibimin seçdiyi kitab maraqlandırırdı. Evə gələndə anlatdı. Elə çətin adı var ki, xahiş elədim, mənimçün kağıza yazdı adını: Rey Bredberi. "Farenheyt 451". Əvvəlcədən dedi ki, bəs bu kitab kitabı yandıranlarla onu qoruyanlardan danışır. "Qəribə adamdırlar eee... Kitabı niyə yandırırlar? Heç kitab nəyə lazımdır, kompüterdə hər şey var da..." - deyəndə bibim dedi, tələsmə, oxuyaq, onda bilərsən, lazımdır, ya yox.

Artıq bir neçə səhifəsini oxumuşuq. Düzdür, hələ axıra çox var, amma indi kitabxana, kitablar haqqında fikirləşdiyim bəzi şeylər üçün utanıram. Ancaq bibimə demirəm. Yəqin, özü də bilir niyə. O gündən kitabxanaya da tez-tez gedirəm. Dostlarımı da yazdırmışam. Bu məktubumu oxuyanlara da meydan oxuyuram. Haqqında danışdığım kitabın adı səhvdir. Hətta Rey Bredberi özü deyib bunu. İndi səhvi tapın görüm!

*Malik Gülməmmədli,*
*Bakıdakı 83 saylı liseyin 2a sinif şagirdi*



**Gülzar İbrahimova**
**yazıçı**

F.Köçərli adına Respublika Uşaq Kitabxanası biz yazıçılara həmişə ata ocağı olub. Uşaqlar üçün yazanları bir-biri ilə tanış edib, dostlaşdırıb. İkinci bir isti ocaq tanımırıq ki, belə mehribanlıqla hamını bir yerə toplaya bilsin, sevindirə bilsin. Bu elm, zəka ocağı bu 50 ildə neçə yazıçılar görüb, neçəsini qarşılayıb, neçəsini hörmətlə, məhəbbətlə haqq dünyaya yola salıb. Bu kitabxananın qapısından Teymur Elçin, Xanımana Əlibəyli girib, əsərlərini təqdim eləyiblər, sevə-sevə oxunublar. Oxcuların, kitabxanaçıların yadında qalıblar, tarixə düşüblər, indi də sevilirlər, oxunurlar.

Bura uşaq sevinci məkanıdır. Uşaqlar kitabxanaya böyük həvəslə gəlirlər. Biz yazıçılar bu ata ocağında oxucularımızla üzbəüz oturub danışa-dərdləşə bilirik. Müasir uşaqların zövqünü bilməyincə onlar üçün yazmaq olmur. Bu baxımdan yazıçılarla oxucuları görüşdürməklə Uşaq kitabxanası üzərinə böyük xeyirxahlıq öhdəçiliyi götürür.

Məktəblərdə yazıçılarla görüş keçirilməsi demək olar ki artıq dəbdə deyil. Amma Respublika Uşaq Kitabxanası elə vaxt olur 1 ayda 5 və ya 7 tədbir keçirir, biri-birindən maraqlı, biri – birindən dəyərli.

Respublika Uşaq Kitabxanası mənim bir yazıçı kimi oxucularımla dönə-dönə yaradıcılıq gecəmi keçirib. Milli, nağıllı geyimlərlə, güllə, çiçəklə.

Bu ay Respublika Uşaq Kitabxanasının 50 illik yubileyidir.

Kitabxana hamımızı başına toplayıb 50 illik yubileyini qeyd edir. Bu 50 ildə kitabxana otaqlarından bir an da olsa uşaq səsi kəsilmədi. Elə bunu da F.Köçərli adına Respublika Uşaq Kitabxanasına arzulayırıq:

"Əziz Kitabxana və kitabxana kollektivi! Üzünüz, gözləriniz həmişə beləcə gülər olsun. Kitablarınızdan uşaq nəfəsi, otaqlarınızdan oxucu balaların gülüş səsi əskik olmasın!".



**Səməd Məlikzadə**
**"Tumurcuq" qəzetinin baş redaktoru.**

Kitabxanalar hər bir xalqın maariflənməsi, biliklərə yiyələnməsi və mənəvi yüksəlişi üçün zəngin xəzinədir. Bu mədəniyyət ocaqları keçmişimizi gələcəyə bağlayır, tariximizin, mədəniyyətimizin və milli mənəvi dəyərlərimizin təbliğində, yaşadılmasında böyük rol oynayır. 50 yaşlı Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanası bu sahədə üzərinə düşən yükü çox şərəflə daşıyır və ölkəmizin gələcəyi olan uşaqların, ilk növbədə, kitaba olan marağının artırılması üçün mühüm işlər görür. Fədakar kollektiv həm də Azərbaycan uşaq ədəbiyyatının öyrənilməsi və yazarların tanıdılması istiqamətində də geniş tədbirlər həyata keçirir, yeni kitablar hazırlayaraq nəşr etdirir.

Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Respublika Uşaq Kitabxanasının son illər "Uşaq Kitab Karvanı" layihəsi əsasında

bögələrimizdə keçirdiyi bütün silsilə tədbirlərdə mən də iştirak etmişəm. Həmin görüşlərdə çağdaş uşaq ədəbiyyatı yazarlarının məktəblilərlə, təhsil işçilərilə görüşləri yaddaşımda uzun illər yaşayacaq. Bu, Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası xanımlarının dəyərli xidmətlərindən biridir. Əlavə edim ki, bu kitabxanada çalışan yüksək səviyyəli xanımlar həm də ədəbiyyatımızın gözəl biliciləridirlər.

Kitabxananın əksər tədbirləri "Tumurcuq" qəzetinin səhifələrində geniş işıqlandırılır. Çünki bu bilik və mədəniyyət ocağının rəhbərliyi kütləvi informasiya vasitələri ilə müntəzəm əməkdaşlıq edir və bunu hər zaman öz işinin bir hissəsi sayır.

50 yaşlı "uşağa" yeni uğurlar arzulayırıq!



## Zahira Dadaşova

### elmi işlər üzrə direktor müavini

*İllərində xatirələr ətri var.*
*Dostlarının hörməti var, xətri var.*
*Yaddaşında yüz minlərlə kitablar*
*əlli nədir yüz əllin də mübarək!*

Uşaq müəssisələrində çalışanlar uşaqların yaxın dostu, sirdaşı və onları daha çox sevən insanlar olmalıdır. Belə olmasaydı, nə mən kitabxanada uzun müddət – 36 il işləyə bilərdim, nə də həmkarlarım. İllərlə kitabxanada həyata keçirilən uğurlu layihələr məhz bundan xəbər verir. "Uşaq Kitabı Karvanı" ilə bölgələrə yola düşəndə, uşaqlarla görüşəndə onların necə maraqla kitablara, jurnallara baxdıqlarının şahidi olmuşam. İllər ötdü. Həmkarlardan – yaxınlarımdan həyatdan gedən də oldu, hazırda qalıb işləyənlər də. Özümü şanslı, xoşbəxt kitabxanaçı sanıram ki, bu 50 yaşlı "Kitab"ın yaşanan səhifələrində ömrümün ən gözəl çağlarında həmkarlarımla çiyin-çiyinə olmuşam.

Ad gününüz mübarək olsun! Balalarımızın milli ruhda, mənəvi cəhətdən sağlam, geniş dünyagörüşə malik insan kimi yetişməsində kollektivimizin hər bir üzvünə cansağlığı arzulayıram. Tutduğunuz yol həmişə uşaq kimi sevincli, saf, nurlu olsun. Birlikdə Kitabxanamızın 100 yaşını qeyd edək!



**Tural Axundov**
**"Aspoliqraf"**
**Nəşriyyat Poliqrafiya**
**Müəssisəsinin baş direktoru**

İllərdir kitab deyəndə ilk yada düşən ünvan F. Köçərli adına Respublika Uşaq Kitabxanasıdır. Balalarımızın sevimli məkanı... Və hər bir məsuliyyətli naşir bu kitabxananın doğma divarları arasında qorunan hər bir kitabda payı olduğunu düşünür. Bu, onun rəhbərlik etdiyi nəşriyyatın məhsulu oldu-olmadı. Çünki balalarımıza nəfis tərtibatlı, ustalıqla işlənmiş çap məhsulu vermək bizim ümumi işimizdir. Birləşməsək, gözəllik, nəfislik yarada bilmərik.

Bizim əməyimizin məhsulu isə 50 yaşını qeyd etdiyimiz kitabxananın rəflərini bəzəyir, onun qayğıkeş əməkdaşları tərəfindən əzizlənir, qorunur və tövsiyə edilir. Yazıçı, naşır və poliqrafçının araya-ərsəyə gətirdiyi Yer üzünün ən əvəzedilməz kəşfi olan kitabların saxlanc yeridir F. Köçərli kitabxanası. 50 illik şərəfli yol keçmiş doğma kitabxanamıza bundan sonra da uğurlu fəaliyyət arzu edirəm. Qoy həmişə uşaqlarımız ən yaxşı kitabları və ən gülərüz kitabxanaçıları məhz burada tapsın!

# Zahid Xəlil
yazıçı



Bu gün 50 yaşını qeyd etdiyimiz Firidun bəy Köçərli adına Respublika uşaq kitabxanası ilə 41 ildir ki intensiv əlaqə saxlayıram. Hər dəfə kitabxanaya gələndə maraqlı bir mənzərənin şahidi oluram. Oxu zalları sanki nəhəng bir pətəkdir. Uşaqlar həmin pətəyə can atan bal arılarına bənzəyirlər. Oxuyub qutardırları kitabları çiçəklərdən topladıqları bal damlaları kimi pətəyə daşıyırlar. Uşaqların rəngarəng paltarları onları nəhəng kəpənəklərə də bənzədir. Sanki bu kəpənəklər uşaq kitablarından yaranan çəmənliyə qonmaq üçün qanad çalır, ora- bura vurnuxurlar.

Ömrümün 15 ilini bu kitabxana ilə daha sıx əməkdaşlıq etmişəm. Azərbaycan televiziyası ilə yayımlanan "Məktəblinin kitabxanası", "Sizin sevimli yazıçılarınız", "Çıraq", "Sərbəst düşüncə studiyası"verilişlərini bu kitabxanada hazırlamışam. Kitabxananın əməkdaşları da mənimlə birlikdə gəncliyin estetik tərbiyəsinə xidmət edən həmin verilişlərin hazırlanmasında böyük zəhmət çəkirdilər. Bir sözlə, 50 yaşı tamam olan bu kitabxananın yubileyi əslində bütün uşaq yazıçılarının, uşaq tərbiyəsi ilə məşğul olan insanların bayramıdır. Bu yubiley mənim üçün ən əziz gülərimdən biri kimi qiymətlidir. Kitabxananın kollektivini və onun oxucularını ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bu elm ocağı bundan sonra da gözəl kitablarla öz oxucularını sevindirsin. Qoy bu bal pətəyi,rəngbərəng çəmənlik öz arıları və kəpənəkləri ilə zəngin olsun.



# İlyas Tapdıq
şair

***Düz 50 ildir ki, birlikdə yol gəlirik Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası ilə. Məhz onun divarları arasında kitablarım öz oxucusunu tapmış, sevilmiş, təbliğ olunmuşdur. Bu kitabxanada oxucularımla saysız-hesabsız görüşlərim olmuş, bu görüşlərdə onların arzu və istəklərini dinləmiş, yeni əsərlər yaratmaq üçün böyük ruh və ilham əldə etmişəm. Həmişə də məni kollektivin öz işinə olan böyük sevgisi təəccübləndirib və düşünmüşəm ki, məhz bu sevginin nəticəsində əldə olunub bütün uğurlar.***

***Bu 50 ildə kitabxana şərəfli yol keçib. Yarım əsr kitaba xidmətdə olan kitabxana öz adını doğrulda bilib. Bu da onun zəfəridir!***



# Ələmdar Quluzadə
## şair

### KİTAB SEVGİSİ

Bahar fəsli torpağın
Çiçək açan sevgisi,
Qələm sözün, söhbətin
Ürək açan sevgisi,
Kitablar uşaqların –
Azərbaycan sevgisi.

İstəyirsənsə çata
Dadına kitabxana,
Gərək həmişə düşə
Yadına kitabxana,
Firidun bəy Köçərli
Adına kitabxana.

### İBAD VƏ QUBAD

İbad dedi Qubada:
– Qurtarıbdı dərslərim,
Uşaq kitabxanasını
Gedək, sənə göstərim.

Qubad sakitcə durub
Seyr etdi dolabları.
Əvvəl gözləri qorxdu
Görəndə dolabları.

Oxu zalı işıqlı,
Hər yan kitabla dolu,
Kitabxanadan keçir
Kitab sevənin yolu.

Qubad əvvəl qutabı
Çox sevirdi kitabdan,
İndi Qubad kitabı
Üstün tutur qutabdan.

İbad yayda bir kitab
Oxuyubdu Qubada,
İndi istəyir onu
Oxutdura Qubada.



# Teyyub Qurban
## Şair, dramaturq, publisist

Yubiley yaşına qədəm qoymuş Respublika Uşaq Kitabxanası adını daşıdığı görkəmli şəxsiyyət Firidun bəy Köçərli kimi Azərbaycan mədəniyyəti tarixinə daxil olmuşdur. Qürur hissi keçirirəm ki, neçə illər kitabxananın nəzdində fəaliyyət göstərən ədəbi yaradıcılıq dərnəyinə rəhbərlik etmişəm. Dərnək üzvləri arasında Bakının müxtəlif məktəblərində təhsil alan şeir və nəsr həvəskarları var idi. Onların arasında ilk dəfə kitabı nəşr olunan bir neçə tələbəm hələ də yadımdadır. 2006-cı ildə dərnək üzvü Firəngiz Arifin “İnanmıram” şeirlər kitabı çap olundu. Həmin şeirlər kitabından iki misra belə xatirəmdə qalıb:

***Xatirələr ünvanında***
***Ümüdim ağ yelkənimdir,***
***Yaşanmamış həyatım da***
***Arzulayır yalnız səni.***

Azərbaycanın ziyalı xanımlarını bir yerə toplamış bu ocaq sabiq dərnək rəhbəri kimi xatirə dəftərimin solmaz səhifəsidir. Bağrıma basıram, təbrik edirəm, heç vaxt unutmadığım doğma kollektivin hər bir üzvünü!

TÜRKSOY

TÜRKSOY [illegible] 903

*F.Köçərli adına Respublika Uşaq Kitabxanası*

*direktoru Ş. Qəmbərova*

*Hörmətli Şəhla xanım!*

*TÜRKSOY* [illegible]

*Respublika Uşaq Kitabxanası* [illegible]

[illegible]

[illegible]

[illegible]

*Dərin hörmətlə,*

**TÜRKSOY Baş katibi** **[illegible]**

**Ankara**, 16.12.2015

---

INTERNATIONAL BOARD ON BOOKS FOR YOUNG PEOPLE iBbY

Nonnenweg 12
CH-4009 Basel
Switzerland
www.ibby.org
liz.page@ibby.org

18 November 2015

Ms Shahla Gambarova
Director of the Republican Children's Library
named after F. Kocharli
10-22 Baku
Azerbaijan

**Celebrating 50 years**

Dear Ms Shahla Gambarova

It was with great pleasure that we received your letter dated 17 November inviting me to attend the 50th anniversary celebrations of the Azerbaijan Republican Children's Library named after F. Kocharli on 15 December 2015.

In these times as children's libraries are having their budgets cut or even closing down, fifty years is a great achievement for a library dedicated to children and deserves hearty congratulations.

While I would really like to join you for the celebratory event, unfortunately I shall be in London at that time and cannot change my plans any more. I truly apologize.

Nevertheless, on behalf of IBBY around the world I send you our best wishes for the future and many congratulations.

With best wishes,

Liz Page

Liz Page
IBBY Executive Director

**Misir Ərəb Respublikasının Səfirliyi**
**Misir Mədəniyyət və Təhsil Məsələləri Mərkəzi**
**Bakı –Azərbaycan**

**سفارة جمهورية مصر العربية**
**مركز مصر للعلاقات الثقافية والتعليمية**
**باكو -أذربيجان**

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

**Şəhla xanım Qəmbərovaya**

*Hamıya məlumdur ki, insanların müəyyən biliklərə yiyələnməsi və müxtəlif mədəniyyətlərlə tanış olması məhz kitab vasitəsilə həyata keçirilir. Kitab oxlurmanın insan həyatında, xüsusilə də uşaqların inkişafında müstəsna rolu danılmaz bir faktdır. Azərbaycanda uzun illər fəaliyyət göstərən F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fəaliyyətini izlədikdə bunu aydın görmək mümkündür.*

*Kitab oxumaq mənəvi zənginlikdir. Bu mənəvi zənginliyin uşaqlar arasında inkişaf etdirilməsində, onların maarifləndirilməsində əvəzsiz rolu olan, uşaq kitabxanalarının elmi metodik mərkəzi sayılan, Azərbaycanda kitabxana işinin yüksək səviyyədə təşkil olunmasının bariz nümunələrindən olan F. Köçərli adına Respublika Uşaq Kitabxanasını 50 illik yubileyi münasibətilə təbrik edir, Sizə və rəhbərlik etdiyiniz Kitabxananın bütün əməkdaşlarına gələcək fəaliyyətinizdə uğurlar, gənc nəslin maarifləndirilməsi yolunda nailiyyətlər arzulayıram.*

*Ümid edirəm F. Köçərli adına Respublikan Uşaq Kitabxanası bundan sonra da uşaqların dünyagörüşlərinin zənginləşməsində, kamilləşməsində və maariflənməsində işlərini uğurla davam etdirəcək.*

*Dərin hörmətlə,*

**Mərkəzin müdiri** **Dr. Əhməd Sami Elaydi**

---

МИНИСТЕРСТВО КУЛЬТУРЫ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ

ФЕДЕРАЛЬНОЕ ГОСУДАРСТВЕННОЕ БЮДЖЕТНОЕ УЧРЕЖДЕНИЕ КУЛЬТУРЫ
«РОССИЙСКАЯ ГОСУДАРСТВЕННАЯ ДЕТСКАЯ БИБЛИОТЕКА»

Директору Республиканской Детской
Библиотеки имени Ф. Кочарли
Г-же Гамбаровой Ш.

***Уважаемая Шахла Гамбарова!***
***Уважаемые коллеги - сотрудники Республиканской Детской Библиотеки имени Фиридуна бека Кочарли!***

От имени коллектива Российской Государственной Детской Библиотеки примите искренние поздравления со знаменательным юбилеем – 50-летием со дня создания вашей библиотеки. Это важная и значимая веха в истории развития всей культуры Республики Азербайджан.

За многолетнюю деятельность ваша республиканская библиотека для детей внесла неоценимый вклад в воспитание подрастающих поколений Азербайджана, в развитие интереса к книге и чтению, к богатствам национальной и мировой книжной культуры, в формирование духовного облика нации.

Ваша библиотека располагает широкими возможностями, предоставляя доступ к богатому фонду изданий, к информационным услугам, ресурсам, к культурным и образовательным программам. В библиотеке работает штат высококвалифицированных специалистов, активно действуют филиалы библиотеки в разных районах Баку.

Мы искренне желаем дальнейших успехов в вашей деятельности, много новых и талантливых читателей, больших хороших книг, интересных встреч, проектов, праздников во имя процветания азербайджанской культуры и всей вашей прекрасной страны.

Всегда открыты и рады сотрудничеству.

С большим уважением и наилучшими пожеланиями,

Директор М.А. Веденяпина

# 50 YAŞLI ƏZİZ KİTABXANAMIZ!

Biz Silsilə İncəsənət Studiyasının bütün üzvləri adından səni təbrik edirik.





Qürbətli Raida



Hüseynova Ləman




Ürək sözümüzü rənglərlə düşünür fırçalarla yazırıq.






Allahverdiyeva Əminə

**Ağ kətan üzərində yazılan arzularımızı qəbul et!**




Hacıyeva Səadət

**Həmişə maraqlı kitablar və sevimli mütaliə məkanı ol!**

**Azərbaycan Respublikası**
**Ədliyyə Nazirliyində**
**qeydiyyatdan keçib.**

**Qeydiyyat nömrəsi:**
№ 3926 – 06.11.2014
2006-cı ilin noyabrından çıxır.

**Təşkilati dəstək:**
Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**Təsisçi:**
F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

**Baş redaktor:** Şəhla Qəmbərova
**Redaktor:** Sevinc Nuruqızı
**Korrektor:** İlahə Quliyeva
**Bədii tərtibat:** Gülnar Qurbanova

Müəlliflik hüququ F.Köçərli adına
Respublika Uşaq Kitabxanasına
məxsusdur.

Xüsusi icazə olmadan jurnalın sürətini,
elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

**Ünvan:** Bakı AZ1022 S.Vurğun küçəsi 122G

**Tel:** (+99412) 5970851,
**Faks:** (+99412) 5970879.

Jurnalımıza abunə olmaq istəyirsinizsə,
yuxarıdakı ünvana müraciət edə bilərsiniz.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya
müəssisəsinin mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.

**www.fb.com/clb.az**